**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN RESPUBLİKASININ İNKLÜZİV İNKİŞAFI: MÜQAYİSƏLİ TƏHLİL

İxtisas: 5902.17 – "Davamlı inkişafın idarə edilməsi"

Elm sahəsi: Siyasi elmlər

İddiaçı: **Mirtalıb Niyaz oğlu Qubadov**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI – 2024**

Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Davamlı inkişafın planlaşdırılması və idarə edilməsi" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: AMEA-nın həqiqi üzvü biologiya elmləri doktoru, akademik
**Urxan Kazım oğlu Ələkbərov**

Rəsmi opponentlər: AMEA-nın müxbir üzvü texnika elmləri doktoru, professor
**Əminağa Bəhmən oğlu Sadıqov**

siyasi elmlər doktoru, dosent
**Adil Mirabdulla oğlu Mirabdullayev**

**s**iyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
**Ramid Söhbət oğlu Hüseynov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində fəaliyyət göstərən BFD 2.30 Dissertasiya şurası

Dissertasiya şurasının sədri
____________________ fəlsəfə elmləri doktoru, professor
**Əlikram Zakir oğlu Abdullayev**

Dissertasiya şurasının elmi katibi:
____________________ siyasi elmlər doktoru, dosent
**Sevda Ağamirzə qızı Əliyeva**

Elmi seminarın sədri:
____________________ siyasi elmlər doktoru, professor
**Ziyafət Ziya qızı Həbibova**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan Respublikası uğurla inkişaf edir və son onilliklərdə iqtisadi, sosial, humanitar inkişafın bir sıra müasir istiqamətlərində dünya liderləri sırasındadır. Bu öz əksini beynəlxalq təşkilatların, o cümlədən Dünya İqtisadi Forumun hesabatlarında tapmışdır.[1] [2] Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğal olunmuş ərazilər işğaldan azad edilmiş, ölkənin suverenliyi bərpa olunmuşdur. Bununla da BMT-nin Təhlükəsizlik Şurasının 4 qətnaməsi, digər beynəlxalq təşkilatların qərarları icra olunmuşdur.[3]

İşğaldan azad edilmiş və tamamilə dağıdılmış ərazilərin regenerasiyası, qaçqın və məcburi köçkünlərin öz məskənlərinə qayıtması üçün Prezident İlham Əliyev tərəfindən 2 fevral 2021-ci il tarixli müvafiq sərəncamı ilə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli prioritetlər" adlı xüsusi dövlət proqramı qəbul olunmuşdur. Qəbul olunmuş dövlət proqramında qaçqın və məcburi köçkün ailələrin "böyük qayıdışı"nın təmin edilməsi ilə yanaşı inklüziv və davamlı inkişafın vacib şərtlərindən olan "yaşıl" iqtisadiyyatın və inklüziv cəmiyyətin formalaşmasını da nəzərdə tutur. Bütün bu bir-biri ilə əlaqədar olan məqsədlərin həyata keçirilməsi davamlı inkişaf prinsiplərinə əsaslanır və həmin prinsipləri nəzərə alan iqtisadi, sosial və ekoloji layihələri kompleks şəkildə həyata keçirilməsini nəzərdə tutur. Dövlət proqramında qarşıya qoyulan məqsədlər isə hazırkı mövzunun aktuallığını göstərən amillərdən biridir.[4]

---

[1] World Economic Forum, Energy Transition Report, October 2023. https://www.weforum.org/agenda/2023/10/energy-transition-progress-trilemma/

[2] World Economic Forum, "The Inclusive Development Index 2018: Summary and data highlights" 2018.

[3] United Nations, Security Council 4 Resolutions on Nagorno-Karabakh. (Resolution № 822, 853,874,884) 1993. https://2001-2009.state.gov/p/eur/rls/or/13508.htm

[4] Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi barədə sərəncamı, Bakı şəhəri, 2 fevral 2021-ci il.

Mövzunun aktual olmasını göstərən digər amillər 2024-ci ildə artıq baş vermiş və gözlənilən milli və beynəlxalq əhəmiyyətli iki hadisə ilə əlaqədardır. Birincisi ölkə Prezidentinin sərəncamı əsasında 2024-ci ilin "Yaşıl dünya naminə həmrəylik" ili elan edilməsidir. İkincisi bu milli əhəmiyyətli hadisə ilə yanaşı, 2024-cü ildə beynəlxalq təşkilatların qərarı əsasında iqlim dəyişmələrinə həsr olunmuş COP29 konfransının Azərbaycanda keçirilməsidir. İqlim dəyişmələrinə təsirlərin sıfıra endirilməsi və ya əhəmiyyətli dərəcədə aşağı salınması, eləcədə ətraf mühitin qorunması və ekoloji təhlükəsizliyin təmin edilməsi inklüziv inkişafın planlaşdırılması və idarəedilməsinin vacib istiqamətlərindəndir. Qeyd olunmalıdır ki, səmərəli enerjiyə transformasiya, yaşıl enerjiyə keçid ilə əlaqədar siyasət Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 20 ildən çox bir müddət ərzində həyata keçirilir. 2004-cü ildə bərpa olunan enerjiyə dair "Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı"nın qəbul edilməsi,[5] sonrakı illərdə isə bu sahəyə aid mühəndis, iqtisadi və hüquqi tədbirlər həyata keçirilməsi inkişafın davamlılığına və inklüziv cəmiyyətin formalaşmasına xidmət edən addımlar idi. Bütün bu xüsusiyyətlər hazırki mövzunun aktuallığının göstəriciləridir.

İnklüziv inkişaf hər şəxsə bərabər inkanlar və hər vəziyyətdə cəmiyyət üçün eyni imkanların yaradılmasını nəzərdə tutsa da, bəzi fərdlər və cəmiyyətin fərqli qrupları üçün inklüziv inkişaf xüsusi əhəmiyyət daşıyır. Bu ilk növbədə təbii səbəblərdən və yaxud hər hansı bir hadisə nəticəsində imkanları məhdud olanlara aiddir. Bu səbəbdən inklüziv təhsil və inklüziv səhiyyə inklüziv cəmiyyətin vacib istiqaməti olmaqla müxtəlif yaşda olan əngəlli şəxslərin sağlamlığına və onların bilik və bacarıqlarının artırılmasını təmin edən vacib bir vasitədir. İnklüziv təhsil və inklüziv səhiyyə sahəsində fəaliyyət həm dövlət təşkilatları, həm də vətəndaş cəmiyyəti tərəfindən həyata keçirilir. Azərbaycanda bu sahədə ən uğurlu fəaliyyəti Heydər Əliyev Fondu göstərir. Ökənin Birinci Vitse-Prezidenti, Heydər Əliyev

---

[5] Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasında bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında 462 nömrəli Sərəncamı. Bakı, 21 oktyabr 2004-cü il

Fondunun Prezidenti Mehriban xanım Əliyevanın fəaliyyəti nəticəsində innovativ yanaşmalardan istifadə etməklə, inklüziv təhsil və inklüziv səhiyyə sahəsində daimi təkmilləşən fəaliyyət göstərilir ki, buda hazırki mövzunun aktuallığını müəyyən edir.[6] [7]

Dünyaca məşhur alimlər Sam Hickey, Kunal Sen, Badru Bukenya tərəfindən yazılmış və 2015-ci ildə dərc olunmuş "İnklüziv inkişaf siyasəti: dəlillərin sorğulanması" (The Politics of Inclusive Development: Interrogating the Evidence) adlı kitabda inklüziv inkişaf sosial problemlərin həlli ilə əlaqələndirilir. Müəlliflərin fikrincə inklüziv inkişaf elə bir prosesdir ki, burada maddi və sosial gəlirlər əhalinin dini, irqi, cinsi kimi ünsürləri nəzərə alınmadan cəmiyyətin bütün üzvləri arasında bərabər paylanır.[8]

Problemin işlənilmə dərəcəsinin göstəricisi kimi A.D.Anderson və B.H.Johnson tərəfindən yazılmış və 2012-ci ildə dərc edilmiş "Öyrənmə, İnnovasiya və İnklüziv İnkişaf: İqtisadi inkişaf strategiyası və inkişaf yardımı üzrə yeni perspektivlər" (Learning, Innovation and Inclusive Development: New perspectives on economic development strategy and development aid) adlı tədqiqatı göstərmək olar. Bu əsərdə qeyd olunur ki, inklüziv inkişaf cəmiyyətdən təcrid olunmuş insanların, qrupların cəmiyyətə inteqrasiya edilməsini nəzərdə tutur. Bundan əlavə inklüziv inkişaf rəsmi və qeyri rəsmi gəlirlərin cəmiyyət üzvləri arasında bərabər bölüşdürülməsini təmin etməklə yanaşı insanların cəmiyyətin gələcəyinin formalaşdırılmasında iştirakını da təşviq edir.[9] Göründüyü kimi, bu halda da inklüziv inkişaf cəmiyyətdən təcrid olunmuş insanların, ayrı fərdlərin və qrupların cəmiyyətə inteqrasiya edilməsini qarşıya hədəf qoymuşdur. Digər tədqiqatlarda da inklüziv inkişaf əsasən xüsusi qayğıya ehtiyacı olan

---

[6] Təhsilə dəstək" proqramı, Heydər Əliyev Fondu, 2023-cü il. https://heydar-aliyevfoundation foundation.org/az/content/blog/132/T%C9%99hsil%C9%99-d%C9%99st%C9%99k

[7] "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı, Heydər Əliyev Fondu, 2023-cü il.

[8] Hickey S., Sen K., Bukenya B. "The politics of inclusive development: Interrogating the evidence". Oxford University Press, 2014.

[9] Johnson B., Andersen.A.D "Learning, Innovation and Inclusive Development: New perspectives on economic development strategy and development aid". Aalborg University (Globelics Thematic Report). 2012

və müəyyən səbəblərə görə cəmiyyətdən təcrid olunmuş şəxslərin cəmiyyətə tam və ya qismən inteqrasiyasını nəzərdə tutur.

İnklüziv inkişaf sahəsi üzrə tədqiqat aparan alimlərdən sayılan G.Rauniyar və R.Kanbur Asiya İnkişaf Bankının maliyyə dəstəyi ilə inklüziv inkişafla bağlı 2010-cu ildə maraqlı araşdırmalar aparmışdırlar. Onlar bildirir ki, inklüziv inkişafı təkcə artımla məhdudlaşdırmaq olmaz. Belə ki, inklüziv inkişaf iqtisadi, sosial və siyasi ekosistemlərin inkişaf etdirilməsi sayəsində insan cəmiyyətinin rifahının artırılması kimi başa düşülməlidir. [10]

İnklüziv inkişaf problemlərinə iqtisadi, sosial, ekoloji və demoqrafik indikatorlar əsasında çoxölçülü bir göstərici kimi təqdim olunması akademik Urxan Ələkbərovun işlərində təqdim olunmuşdur. Akademik Urxan Ələkbərovun bir çox əsərlərində bu prinsip istifadə edilmişdir. Belə ki, dissertasiya işinin tərtibi üçün əhəmiyyətli olan amillər – insan cəmiyyəti inkişafının mərhələlərinin təsnifatı, inkişafın dəyərləndirilməsi metodlarının təkamül prosesinin təhlili, inklüziv cəmiyyətin formalaşdırılması üçün vacib olan insan potensialının artırılması göstəricilərinin əhəmiyyəti, o cümlədən ekoloji təhlükəsizliyin təmin edilməsi üçün ətraf mühitin mühafizəsi kimi sahələrin təhlili ilə bağlı akademik U.Ələkbərovun "İnsan inkişafının əsasları", "Davamlı inkişaf və ekoloji sivilizasiyanın idarə edilməsinin əsasları", "İnklüziv inkişafın idarə edilməsinin əsasları", "Davamlı insan inkişafı və ekoloji sivilizasiyanın əsasları" və digər elmi əsərlərinə istinad olunmuşdur. U.Ələkbərov inklüziv inkişafın idarəedilməsi sahəsində dünyada ilk dərsliyin müəllifidir və bu dərsliyin ingilis versiyası Amazon platforma vasitəsi ilə qlobal miqyasda yayılır.[11]

Dissertasiya işi mövzusunun bugünə qədər işlənib işlənməməsinə qısa nəzər yetirdiyimiz zaman aydın olur ki, dissertasiya mövzusuna oxşar mövzular müxtəlif elm xadimləri tərəfindən araşdırılsa da, Azərbaycan Respublikası inklüziv inkişafının təmin edilməsinə təsir

---

[10] Rauniyar, Ganesh; Kanbur, Ravi. Inclusive Growth and Inclusive Development: A Review and Synthesis of Asian Development Bank Literature. Asian Development Bank, 2009.

[11] Alakbarov U. Fundamentals of inclusive development management, the book for high schools, 2019.

göstərən göstəricilərin tədqiqi, onların regional və qlobal müqayisəsi hərtərəfli formada elmi yollar ilə öyrənilməyib. Ümumiyyətlə qeyd edilməlidir ki, inklüzivlik istiqamətində aparılan tədqiqatlar daha çox inklüziv təhsilə və yaxud inklüziv səhiyyəyə aid olmuşdur. Cəmiyyətdə gəlir və istehlakda müşahidə edilən qeyri-bərabərliyin aradan götürülməsinə yönəldilmiş tədqiqatlar isə məhduddur. Hər hansı bir ölkədə inklüziv inkişafın bütün göstəricilərinin təhlili ilə aparılan tədqiqatların sayı olduqca azdır. Bu səbəbdən bu dissertasiya işinin mövzusu tam işlənilməmiş bir mövzudur və bu sahədə bir ilkdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini Azərbaycan Respublikasının inklüziv inkişafı və onu müəyyən edən əsas indikatorlarıdır. Tədqiq edilən indikatorlar inklüziv inkişafın dəyərləndirilməsi üçün istifadə olunan hər üç qrup göstəricinin təhlilini nəzərdə tutmuşdur. İnklüziv inkişafı səciyyələndirən bu qruplara ölkənin iqtisadi artım və inkişaf göstəriciləri, əhalinin bu göstəricilər ilə əhatə olunma dərəcəsi, istehlak və gəlirlərdə bərabərlik və bu proseslərin davamlı olması, iqlim dəyişmələrinə təsirlər aiddir. Tədqiqatın predmetini isə bu indikatorların regional, qlobal müqayisəli təhlili təşkil edir.

**Tədqiqat işinin məqsəd və vəzifələri**. Tədqiqat işinin məqsədi Azərbaycan Respublikası inklüziv inkişafının təmin edilməsi sahəsində görülmüş işlərin, bu sahədə yaranmış vəziyyətin müqayisəli təhlil etməkdən ibarətdir. Qarşıya qoyulmuş məqsədin reallaşdırılması üçün aşağıda qeyd olunan məsələlərin elmi-nəzəri tədqiq edilməsi konkret vəzifələr kimi müəyyən edilmişdir:

- cəmiyyətin inkişafının müxtəlif mərhələlərində ətraf iqtisadi, təbii və sosial mühitə təsirlərini və proseslərin əlaqəli olmasını müfəssəl təhlil etmək;
- Ölkələrin inkişafının dəyərləndirilməsində istifadə edilən metodların təkamül prosesini təhlil etmək;
- İnklüziv inkişaf konsepsiyasının formalaşması tarixi və elmi-nəzəri əsaslarını tədqiq etmək;
- İnklüziv inkişafın təmin edilməsi üçün zəruri olan göstəricilərini təhlil edərək onların mahiyyətini açıqlamaq;
- İnsan potensialının artırılmasını davamlı inklüziv inkişafın əsası kimi tədqiq edərək bu yöndə ölkədə görülmüş işləri işıqlandırmaq;

- Ətraf mühitin mühafizəsi və ekoloji təhlükəsizliyin təmin edilməsi sahəsində Azərbaycanda həyata keçirilən tədbirlərin əhəmiyyətini tədqiq etmək;
- Azərbaycan Respublikasında Davamlı inkişaf məqsədlərinin təmin edilməsi istiqamətində görülmüş işlər təhlili əsasında onların inklüziv cəmiyyətin formalaşmasına təsirlərini öyrənmək;
- Azərbaycan Respublikasının davamlı inklüziv inkişafının beynəlxalq təşkilatlar tərəfindən necə qiymətləndirildiyini araşdıraraq müqayisəli təhlil aparmaq.

Sadalanan bu vəzifələr inklüziv inkişafın dissertasiya işi çərçivəsində təhlil etdiyimiz bütün əsas amillərini əhatə edir.

**Tədqiqatın elmi yeniliyi**. Dissertasiya işinin elmi yeniliyi araşdırılan problemin və qarşıya qoyulmuş vəzifələrin ilk dəfə əldə edilməsi ilə xarakterizə olunur. Elmi yenilik aşağıda qeyd olunmuş bir neçə istiqamətlə müəyyən edilmişdir:

- ilk dəfə olaraq, Azərbaycan Respublikasının inklüziv inkişafın təmin edilməsi sahəsindəki fəaliyyəti ətraflı və sistematik şəkildə tədqiq və təhlil edilmişdir;
- ilk dəfə olaraq inklüziv inkişaf konsepsiyası milli inkişafın dəyərləndirilməsi prosesi kimi qiymətləndirilmişdir;
- Azərbaycan Respublikasının davamlı inklüziv inkişaf sahəsində əldə etdiyi nailiyyətlərin beynəlxalq təşkilatlar tərəfindən qiymətləndirilməsi müqayisəli şəkildə tədqiq edilmişdir.

**Tədqiqat işinin elmi-nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiyanın elmi-nəzəri və praktiki əhəmiyyəti dissertsaiya işinin Azərbaycanda davamlı inklüziv inkişafın idarə edilməsi sahəsində ilk elmi-tədqiqat işlərindən biri olmasıdır. Bunları nəzərə alaraq, bu dissertasiya işi gələcəkdə davamlı inklüziv inkişafın regional və sahələr üzrə planlaşdırılması və idarə olunması zamanı praktiki qərarların qəbul edilməsində, idarəçilik haqqında normativ bazanın tərtib edilməsində və həmçinin tədris prosesində geniş istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi**. Dissertasiya Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Davamlı inkişafın planlaşdırılması və idarə edilməsi" kafedrasının "davamlı inkişafın idarə edilməsi" ixtisası üzrə yerinə yetirilmişdir.

Dissertasiyanın məzmununun əsas müddəaları müəllif tərəfindən çap olunmuş doqquz elmi məqalədə öz əksini tapmışdır. Elmi əsərlər Azərbaycan Respublikası, digər ölkələrdə, milli və beynəlxalq Elmi Attestasiya qurumları tərəfindən təsdiq edilmiş nəşrlərdə dərc edilmişdir. Eyni zamanda, dissertasiyada əksini tapmış materiallar müəllifin çıxış etdiyi elmi konfranslar və seminarlarda, oxuduğu mühazirələrdə də təqdim edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Davamlı inkişafın planlaşdırılması və idarə edilməsi" kafedrasında tamamlanmışdır.

**Dissertasiyanın strukturu.** Tədqiqat işinin strukturu mövzunun xarakterinə uyğun olaraq müəyyənləşdirilmişdir. Dissertasiya işinin titul səhifəsi (315 işarə), mündəricat (2.366 işarə), giriş (14.428 işarə), I Fəsil – (40.114 işarə), II Fəsil – (56.214 işarə), III Fəsil – (47.110 işarə), IV Fəsil - (41.132), (nəticə (3.725 işarə) təşkil edir. Tədqiqat işində 53 şəkil və 9 cədvəl verilmişdir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** bölməsində mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın obyekti və predmeti, tədqiqatın məqsəd və vəzifələri, tədqiqatın metodları müəyyənləşdirilmiş, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, tədqiqatın nəzəri və praktiki əhəmiyyəti şərh edilmiş, tədqiqat işinin aprobasiyası və dissertasiyanın strukturu qeyd edilmişdir.

Dissertasiyanın ilk fəsli **"İnklüziv inkişaf konsepsiyasının formalaşması"** adlanır və üç yarımfəsildən ibarətdir. Bu fəsildə dünya ölkələrinin inkişafının dəyərləndirilməsi və qiymətləndirilməsində istifadə edilən metodların təkamül prosesi haqqında geniş təhlillər aparılmışdır. Bundan əlavə inklüziv inkişaf anlayışının elmi-nəzəri mahiyyəti, müasir çağırışlar və meyarları barədə araşdırılmalarına da yer verilmişdir.

Birinci fəslin **"İnsan cəmiyyəti inkişafının müxtəlif mərhələlərində ətraf təbii və sosial mühitə təsirlərin qiymətləndirilməsi"** adlı yarımfəslində keçmişdən bugünə qədər

bəşəriyyətin inkişafının müxtəlif mərhələlərində ətraf və sosial mühitə təsirlərin qiymətləndirilməsi sahəsində geniş araşdırılma aparılmışdır. İnsan cəmiyyəti inkişafının bütün mərhələlərinin xarakterik xüsusiyyətləri həmin yarımfəsildə qeyd olunur. Qeyd olunan xarakterik xüsusiyyətlər göstərir ki, cəmiyyətin inkişafının bütün mərhələlərində insanlar təbiətlə və ətraf mühitlə sıx bağlı olmuş, bütün hallarda ondan asılı şəraitdə yaşamışdır. Bu səbəbdən bir sıra hallarda insanların fəaliyyəti əsasən iqtisadi və sosial baxımdan cəmiyyət üçün əsasən müsbət nəticə ilə səciyyələndirilsə də, eyni zamanda ətraf mühitə mənfi təsirlər də göstərmişdir. Nəticədə isə insanın ətraf təbii və sosial mühitə təsiri, yəni antropogen təsirlər səbəbindən təbii proseslər dəyişikliyə məruz qalmış və bu sosial sahəyə də öz mənfi təsirini göstərmişdir. Bir sıra mənbələrdə belə proseslərin baş verməsinin bir səbəbi kimi Yer kürəsində əhalinin sayının surətlə artması göstərilir.[12] Əhalinin sayının surətlə artması ilə yanaşı, dünyada elmi-texnoloji tərəqqi və müvafiq olaraq iqtisadiyyat, sosial sahədə qazanılan uğurlar fonunda bu nailiyyətlərin istifadəsində qeyri-bərabərlik müşahidə edilməkdədir. Dərc edilmiş statistik məlumatlara görə dünya ölkələri arasında və ölkələr daxilində əhalinin gəlirləri və istehlakında çox böyük fərqlərin olması mövcuddur.[13]

Birinci fəslin **"İnkişafın qiymətləndirilməsi prosesinin təkamülü və müasir vəziyyəti"** adlanan yarımfəslində qeyd edilir ki, idarəçiliyin hər bir sahəsində, o cümlədən dövlət idarəçiliyində planlaşdırma mərhələsi olduqca əhəmiyyətlidir. Səmərəli planlaşdırma isə ilk növbədə mövcud vəziyyətin qiymətləndirilməsindən başlanır.[14] Ölkələrin və ya bölgələrin inkişafının qiymətləndirilməsi müvafiq göstəricilərdən istifadə etməklə həyata keçirilir. Bu göstəricilər zaman keçdikcə dəyişmiş və təkmilləşdirilmişdir. Hazırki yarımfəsildə inkişafın dəyərləndirilməsi prosesinin necə dəyişməsi təhlil edilir.

---

[12] UNFPA's View On Population: An Economic Analysis Alejandro Cid, http://www.bvrie.gub.uy/local/File/JAE/2003/iees03j3440803.pdf, 15 pages;
[13] Gini index, World Bank estimate. 2023.
https://genderdata.worldbank.org/indicators/si-pov-gini/
[14] Introduction to Public Administration, Academic Press, 2017, 346 p https://www.pdfdrive.com/introduction-to-public-administration-e58958831.html

Bu yarımfəsildə dünya ölkələrinin inkişafının dəyərləndirilməsi və qiymətləndirilməsində keçmişdən bugünə qədər istifadə edilmiş bütün metodlar haqqında araşdırılma aparılmışdır. İnkişafın dəyərləndirilməsində ilk metod kimi istifadə edilən ÜDM həcmindən, sonrakı metodlar olan İnsan inkişafı indeksi, Davamlı inkişaf indeksi və sonda ən müasir, ən yeni metod olan İnklüziv inkişaf indeksi haqqında bilgilər təqdim edilmişdir.




***Şəkil 1.*** *İnkişafın dəyərləndirilməsi üsulunun təkamülü.*

Şəkil 1 – də inkişafın dəyərləndirilməsində istifadə edilən göstəricilərin təkamül prosesi təqdim edilmişdir. Verilmiş şəkil müəllif tərəfindən hazırlanmışdır və unikal araşdırma materialıdır. Şəkildən də aydın görünür ki, inkişafın ölçülməsi ilk vaxtlar ÜDM-nin həcmi ilə aparılıdı. Lakin bu metod ümumiləşdirilmiş göstərici hesab olunurdu. Bu metodla əhalinin sosial vəziyyəti haqqında məlumat almaq mümkün deyildi. Şəkildən də göründüyü kimi bəşəriyyət inkişafın dəyərləndirilməsi üçün başqa metodlardan istifadə etməyə başlamışdır.Tətbiq olunmuş yeni metodlar əhalinin sosial vəziyyəti haqqında da təsəvvür yaratmaq imkanı formalaşdırır. Qeyd olunan yarımfəsildə Şəkil 1 – də verilmiş bütün metodlar barədə geniş təhlillərə yer verilmişdir. Şəkilin hazırlanmasında bu sahə üzrə böyük

elmi tədqiqatlar aparmış akademik U.Ələkbərovun əsərlərindən geniş istifadə edilmişdir.[15] [16]

Birinci fəslin **"İnklüziv inkişaf inkişafın dəyərləndirilməsi prosesinin yeni mərhələsi kimi"** adlanan üçüncü yarımfəslində qeyd olunur ki, uzun illər cəmiyyətin, dövlətin inkişaf göstəricisi ÜDM və adambaşına düşən ÜDM hesab olunmuşdur. Artıq zaman dəyişir, yeni prioritetlər, çağırışlar formalaşır, yeniliklər meydana çıxır. Dövlətin inkişafının qiymətləndirilməsində iqtisadi gücü ilə yanaşı onun sosiallığı, ekoloji durumu, davamlılığı, inklüzivliliyi də nəzərə alınmalıdır. Ona görə də cəmiyyətin inkişaf səviyyəsi bir meyar üzrə yox multimeyarlar əsasında qiymətləndirilməlidir.

Cəmiyyətdə iqtisadi inkişafla yanaşı, sosial məsuliyyət məsələləri, vətəndaşların əməyə və iş yerlərinə münasibətləri, gəlirlərin ədalətli bölgüsü, resurslardan qənaətlə istifadə texnologiyaları kimi məsələlər də araşdırılmalıdır. İdarəçilikdə sosial yönümlü effektiv idarəetməyə üstünlük verilməli, cəmiyyətdə sosial razılıq mühiti formalaşdırılmalı,inklüziv cəmiyyətdə inklüziv iqtisadiyyat olmalı, cəmiyyət və iqtisadiyyat sosial yönümlü yanaşmalar və texnologiyalar əsasında idarə olunmalıdır. Hər bir kəsin işləməsi, müvafiq əmək haqqı alması üçün ilk növbədə onun fərdi əmək qabiliyyətinin reallaşdırılması istiqamətində müvafiq əmək alətləri, iş şəraiti, istehsal və xidmət sahələri yaradılmalıdır. Hər bir kəsin təbii potensialından asılı olmayaraq dəyər yaratmaq imkanı tanınmalı və reallaşdırılması göstərilmişdir. Bu halda iqtisadiyyat da məhz həmin qrup insanların yaratdıqları dəyər hesabına daha da inkişaf edəcəkdir.[17]

Bütün bu multimeyarları təmin etmək, yeni tələb və çağırışlara cavab vermək, inkişafın hər tərəfli qiymətləndirilməsinin aparılmasının

---

[15] Ələkbərov U.K. "Dövlət qulluğu üçün insan potensialının formalaşdırılmasında innovativ idarəçilik texnologiyaları" adlı məqalə. Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə jurnalı, № 3 (79), s 75-84, 2022-ci il.

[16] Алакбаров У.К. Подготовка государственных служащих в области управления устойчивым развитием как фактор формирования инклюзивного общества. Ж. Государственная служба т.25, №5, с. 55-60.

[17] Əliquliyev R.M.,Əliyev Ə.Q. "İqtisadi inkişafın inklüzivlik xüsusiyyətləri və onun formalaşması səviyyəsinin qiymətləndirilməsinin metodoloji əsasları" İnformasiya cəmiyyəti problemləri jurnalı, №1, Bakı, 2020-ci il.

zəruriliyi inklüziv inkişaf konsepsiyasının yaranmasına səbəb olmuşdur.

Dissertasiyanın ikinci fəsli **"İnklüziv inkişafın qiymətləndirilməsi prosesinin əsas istiqamətləri"** adlanır və dörd yarımfəsildən ibarətdir. Bu fəsil inklüziv inkişafın təmin edilməsi və inklüziv cəmiyyətin formalaşdırılması üçün vacib olan göstəricilərin təhlilinə həsr olunmuşdur.

İkinci fəslin **"İnklüziv inkişafın dəyərləndirilməsi indikatorları (göstəriciləri)"** adlanan yarımfəslində qeyd edilir ki, inklüziv inkişaf bəşəriyyətin qarşısında duran ən vacib öhdəliklərdən biridir. Belə ki, inklüziv inkişaf insan cəmiyyətini narahat edən bütün problemlərin həllini nəzərdə tutur. Hazırda bütün dünya ölkələri və beynəlxalq təşkilatlar inklüziv inkişafın təmin edilməsi üçün bütün səylərini səfərbər etmişdirlər. İnklüziv inkişaf təkcə dövlət idarəçiliyində istifadə edilən inkişaf nəzəriyyəsi deyil, o, eyni zamanda ölkələrin inkişafının qiymətləndirilməsində də xüsusi meyar rolunu oynayır. Hazırki müasir dövrdə ölkələrin inkişafının dəyərləndirilməsi İnklüziv inkişaf indeksi (İİİ) ilə aparılır.[18]

Beynəlxalq standartlara əsasən, inklüziv inkişaf vəziyyətinin qiymətləndirilməsi, bu sahədə ölkələrarası müqayisələr 12 müxtəlif göstərici əsasında aparılır. Üç əsas qrupda cəmləşdirilə bilən bu göstəricilərlə (indikatorlarla) ölkələrdə inklüziv inkişafın vəziyyəti müxtəlif iqtisadi, sosial, demoqrafik və ekoloji parametrlər əsasında müəyyən edilir.

Dərc olunmuş məlumatlardan görmək olur ki, inklüziv inkişafın vacib şərtlərindən biri iqtisadi artım və iqtisadi inkişafdır. Bu göstərici inkişafın dəyərləndirilməsi prosesinin bütün mərhələlərində əsas göstərici kimi istifadə olunub. İqtisadi inkişaf olmadan inklüziv inkişafın təmin edilməsi mümkün deyil. Lakin iqtisadi artım inklüziv inkişaf üçün yalnız şərait yaratmış olur. İqtisadi inkişafın təmin edilməsi hesabına əldə olunan maliyyə resursları əhalinin rifahının yüksəldilməsi üçün uğurlu sosial siyasətin həyata keçirilməsinə yönəldilməlidir.

---

[18] Qubadov M.N. "Azərbaycan Respublikasının inklüziv inkişafı: müasir vəziyyətlər və prioritetlər", İnsan və Biosfer (MaB-Yunesko) jurnalı, buraxılış 16, səh. 291-300, Bakı, 2021-ci il.

Lakin inklüziv inkişaf, inkişaf edən cəmiyyətin qurulması bu iki vacib şərtin – uğurlu iqtisadi və sosial siyasətin mövcudluğu ilə məhdudlaşmır. Bu prosesin davamlı olması, yəni gələcək nəsillər üçün keçərli olması da vacib şərtdir. Bu səbəbdən inklüziv inkişaf konsepsiyasının iqtisadi, sosial və davamlılıq sahələrini əhatə edən üç müxtəlif qrup göstəricisi vardır.[19] Məhz bu üç əsas göstəricidən formalaşan 12 multimeyarların təmin edilməsi şəraitində inklüziv inkişafı reallaşdıra və inklüziv cəmiyyəti formalaşdıra bilərik.

İkinci fəslin **"Resurslardan səmərəli istifadə davamlı inklüziv inkişafın göstəricisi kimi"** adlı yarımfəslində inklüziv inkişafın təmin edilməsinə təsir edən göstəricilərdən biri resurslardan səmərəli istifadə edilməsi məsələsi araşdırılmışdır.

2018-ci il Davos Dünya İqtisadi Forumunda inklüziv inkişaf sahəsində təqdim edilmiş hesabatlardan aydın görünür ki, resurslarla zəngin olan bir neçə ölkələr inklüziv inkişaf indeksinə görə resursları az olan ölkələrdən geridə qalmışdır.[20] Bunun səbəbi kimi həmin zəngin ölkələrin resurslardan səmərəli və optimal qaydada istifadə etməməsi göstərilir. Resurslardan səmərəli qaydada istifadə edilməsi şəraitində məhdud resurslara malik ölkələr həmin hesabatda lider yerləri tutmuşdurlar. Bu mənada resurslardan səmərəli istifadə edilməsi davamlı inklüziv inkişafın təmin edilməsi üçün olduqca əhəmiyyətli göstəricidir.[21]

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2 fevral 2021-ci il tarixli müvafiq sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" davamlı inklüziv inkişaf konsepsiyası ilə sıx uzlaşır.[22] Prezident İlham Əliyev tərəfindən təsdiqlənmiş beş Milli Prioritet bir sıra vəzifələri

---

[19] Ələkbərov U.K. "İnklüziv inkişafın idarə edilməsinin əsasları". Ali məktəblər üçün dərslik. 215 səh, Bakı şəhəri, 2018-ci il.

[20] World Economic Forum, "The Inclusive Development Index 2018: Summary and data highlights" 2018.

[21] Qubadov M.N. "Azərbaycan Respublikasının davamlı inkişafın planlaşdırılması və idarəedilməsində dəyərləndirmə üsulları" Dövlət İdarəçiliyi: nəzəriyyə və təcrübə jurnalı, №3 (79), səh 93-102, 2022-ci il.

[22] Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi barədə sərəncamı, Bakı şəhəri, 2 fevral 2021-ci il. https://president.az/az/articles/view/50474

qarşıya hədəf qoymuşdur. Bu vəzifələrdən biri də enerjidən səmərəli istifadə və yaşıl enerji mənbələrindən istifadənin artırılmasıdır.




**Şəkil 2.** *Azərbaycan və qonşu ölkələrin bir vahid enerji sərfi hesabına başa gələn ÜDM-in ABŞ dollarında ifadə edilmiş həcmi AQP nəzərə alınmaqla, Məlumat mənbəyi: Dünya Bankı, 2024-cü il.*[23]

Enerjidən səmərəli istifadənin monitorinqi bir neçə göstərici əsasında aparılır. Bu göstəricilərindən biri  müxtəlif ölkələrdə bir vahid enerjinin istifadəsi nəticəsində istehsal olunmuş məhsul və xidmətlərin (ÜDM), alıcılıq qabiliyyəti pariteti nəzərə alınmaqla, ABŞ dollarında dəyəri müəyyənləşdirilir. Hesablamalarda bir vahid enerjinin ekvivalenti kimi onun bir kiloqram neftdəki miqdarı götürülür.[24]

Şəkil 2 – də Azərbaycan və qonşu ölkələrin enerjidən nə qədər səmərəli istifadə edilməsini əks etdirən diaqram təqdim olunmuşdur.

---

[23] Qubadov M.N. "Enerji səmərəliliyinin idarəedilməsi davamlı inkişaf amili kimi", Dövlət İdarəçiliyi: nəzəriyyə və təcrübə jurnalı,  № 1 (81), səh: 281-292, Bakı, 2023-cü il.

[24] Ələkbərov U.K. "Azərbaycan Respublikası və keçmiş SSRİ ölkələrində davamlı inklüziv inkişaf: müqayisəli təhlil" adlı məqalə. Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə jurnalı, № 1, s 123-138, 2020-ci il.

Qeyd edilməlidir ki, Şəkil 2 – də təqdim olunmuş statistik göstəricilər Dünya Bankı tərəfindən 2024-cü il üçün dərc olunmuş ən son məlumatlardır və enerji səmərəliliyinin müqayisəsi üçün şərait yaradır. Şəkil 2 – dən görünür ki, beynəlxalq təşkilatlar tərəfindən dərc edilmiş ən son məlumatlara əsasən, Azərbaycan Respublikası qonşu ölkələr arasında təbii ehtiyatların səmərəli idarə edilməsi sahəsində yalnız Türkiyədən geridə qalaraq ikinci yerdə qərarlaşıb.[25]

İkinci fəslin **"Qlobal iqlim dəyişikliyi davamlı inklüziv inkişafa təsir göstərən amil kimi"** yarımfəslində qeyd edilir ki, dünya ölkələrinin inkişafının dəyərləndirilməsində istifadə olunan davamlı inklüziv inkişaf indeksinə təsir edən digər göstərici atmosferə atılan istixana qazlarının həcmidir. İnkişafın dəyərləndirilməsində bu göstəricinin istifadə olunmasının əsaslı səbəbi vardır. Planetimizdə bir sıra qlobal ekoloji problemlər mövcuddur. Bu qlobal ekoloji problemlər arasında iqlim dəyişiklikləri mühüm yer tutur. İqlim dəyişmələri ölkələrin sənayesi ilə yanaşı kənd təsərrüfatına, ətraf mühitə, biomüxtəlifliyə, qlobal ərzaq və qida təhlükəsizliyinə də zərər vurur.

İqlim dəyişiklikləri prosesinin yaranmasına bir sıra amillər təsir göstərir ki, bunlardan ən başlıcası atmosferə atılan istixana qazlarının həcmidir. Ona görə də qlobal iqlim dəyişiklikərinə səbəb olan qazların atmosferə atılmasının idarə edilməsi prosesinin monitorinqi davamlı inklüziv inkişafın əsas indikatoru sayılır. İndikatorun qiymətləndirilməsi iki üsulla həyata keçirilir. Birinci üsul müxtəlif ölkələrdə bir il ərzində adambaşına atmosferə atılan karbon dioksid ($CO_2$) qazının tonlarla ölçülən miqdarıdır. İkinci üsulun tətbiqi zamanı 1 ABŞ dolları dəyərində ÜDM-nin istehsalı zamanı atmosferə atılan $CO_2$ miqdarı kiloqram və qramla dəyərləndirilir.

Şəkil 3 – də Azərbaycan və qonşu ölkələr tərəfindən atmosferə atılan istilik effekti yaradan qazların həcminin müqayisə və təhlil edilməsinə şərait yaradan diaqram verilmişdir. Şəkil 3-də təqdim edilmiş məlumatlar Dünya Bankı tərəfindən dərc edilmiş ən son

---

[25] Ələkbərov U.K. "Prezident İlham Əliyevin unikal dövlət idarəçilik texnologiyalarının parlaq hərbi sınağı" adlı məqalə. Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə jurnalı, № 4, s 157-174, 2020-ci il.

hesabatlar əsasında hazırlanmışdır. Təqdim olunmuş məlumatlardan aydın görünür ki, ölkəmiz alıcılıq qabiliyyəti pariteti nəzərə alınmaqla 1 ABŞ dolları dəyərində məhsul və ya xidmətin istehsalı zamanı atmosferə 0.2 kiloqram istixana qazı atmaqla bu sahədə yüksək nəticə əldə etmişdir. Atmosferə atılan istixana qazının həcmi sahəsində regionda lider olan ölkəmiz, bu sahədəki  nailiyyəti yalnız ölkə Prezidenti İlham Əliyev tərəfindən tətbiq edilən müasir, innovativ idarəetmə texnologiyaların tətbiqi hesabına əldə etmişdir. Bu nəticə ondan irəli gəlir ki, Dünya Bankının məlumatları əsasında 2004-cü ildə bu rəqəm 1 kq təşkil edirdi. [26]




**Şəkil 3.** 2020-ci ildə *Azərbaycan və qonşu dövlətlərin 1 ABŞ dolları dəyərində ÜDM-nin istehsalı zamanı atmosferə atılan istixana qazlarının miqdarı, (kiloqramla ifadədə)*
*Məlumat mənbəyi: Dünya Bankı, 2024-cü il.*

İkinci fəslin sonuncu yarımfəsli **"Xüsusi mühafizə edilən ərazilər davamlı inklüziv inkişafa təsir edən amil kimi"** adlanır. Bu

[26] The World Bank Data,  Development Indicators https://data.worldbank.org/indicator/NY.GDP.PCAP.PP.CD

yarımfəsildə xüsusi mühafzə edilən ərazilərin inklüziv inkişafın təmin edilməsindəki rolu təhlil edilir.

Təbii sərvətlərin qorunması və onlardan davamlı istifadə XXI əsrin ən mühüm və qlobal problemlərindən olmaqla, dövlətlərin həllini vacib hesab etdiyi prioritet məsələlərdən biridir. Təbii sərvətlərin və ümumi ekoloji sistemin ayrılmaz hissəsi olan bioloji müxtəliflik çox mühüm, lakin hələ də tam qiymətləndirilməmiş zəngin ehtiyat mənbəyidir.[27] Son zamanlar planetimizdə antropogen fəaliyyət nəticəsində ekosistemlər deqradasiyaya uğramış, bir çox flora və fauna növləri isə məhv olmuş və ya onların sayı kəskin surətdə azalmışdır. Bioloji müxtəlifliyin belə sürətli itkisi Yer kürəsini və bütövlükdə canlı aləmi ciddi təhlükədə qoymaqla, qlobal faciəyə səbəb ola bilər.[28] Hazırki yarımfəsildə Azərbaycan Respublikasında bioloji müxtəlifliyin və ekosistemlərin qorunmasına xidmət edən qorunan ərazilərin, onların turistik və ekoturistik potensialı, davamlı inklüziv inkişaf sahəsindəki əhəmiyyəti araşdırılmışdır.

Üçüncü fəsil **“Azərbaycan Respublikasının inklüziv inkişaf göstəriciləri”** adlanır və üç yarımfəsildən ibarətdir. Bu fəsil Azərbaycan Respublikasında inklüziv inkişafın təmin edilməsi üçün görülmüş işlərin təhlilinə həsr edilib.

Üçüncü fəslin **“İnsan inkişafı davamlı inklüziv inkişafın əsası kimi ”** adlanan yarımfəslində göstərilir ki, dünyanın iqtisadi və sosial sahələrdə yüksək nəticələr əldə etmiş ölkələrdə olduğu kimi Azərbaycan Respublikasında da inklüziv inkişafın təmin edilməsinə xüsusi önəm verilir. Qeyd etmək zəruridir ki, inklüziv cəmiyyətə keçidin formalaşdırılması və qurulması inkişafın davamlı olması və insan potensialına, onun bilik və bacarığına əsaslanmasının, onun iqtisadiyyatda insan kapitalına çevrilməsi şəraitində mümkündür. Bu mənada inklüziv cəmiyyətin formalaşdırılması və davamlı inklüziv

[27] Qubadov M.N. “Qorunan ərazilərin təbii ehtiyatların optimal idarəedilməsi və davamlı inkişafda rolu” İnsan və Biosfer (MaB-Yunesko) jurnalı, buraxılış 17, səh. 295-208, Bakı, 2022-ci il.

[28] Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin “Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunmasına və davamlı istifadəsinə dair 2017-2020-ci illər üçün Milli Strategiya”nın təsdiq edilməsi ilə bağlı sərəncamı. 3 oktyabr 2016-cı il.

inkişafın təmin edilməsi üçün iqtisadi artım hesabına əldə olunan resurslar insan potensialının inkişaf etdirilməsinə yönəldilməlidir.[29]

Məlumdur ki, insan potensialının inkişaf etdirilməsi sahəsində mövcud vəziyyətin qiymətləndirilməsi İnsan İnkişafı İndeksi ilə həyata keçirilir.

BMT-nin hesabatlarına əsasən, Azərbaycan Respublikasında insan inkişafı indeksi ilbəil artmaqdadır və ölkəmiz 2010-cu ildən başlayaraq insan inkişafı sahəsində yüksək nəticələr əldə etmiş ölkələr qrupuna daxil olmuşdur (şəkil 4).[30] Ölkəmizin İnsan İnkişafı sahəsində son onillikdə əldə etdiyi müsbət inkişaf tempini Şəkil 4 – dən aydın görmək mümkündür. Qeyd etmək lazımdır ki, Şəkil 4 – də təqdim edilmiş məlumatlar BMT-nin İnkişaf Proqramı (UNDP) tərəfindən son onillikdə dərc edilmiş Hesabatlarından götürülmüşdür.[31]




***Şəkil 4.*** *Azərbaycan Respublikasında İnsan İnkişafı İndeksinin dinamikası. Məlumat mənbəyi: BMT, 2022-ci il.*

Üçüncü fəslin **"Neft kapitalının insan potensialına transformasiya edilməsi prosesi"** adlı yarımfəslində qeyd edilir ki,

[29] World Economic Forum "Inclusive Development Report", Geneva, Switzerland, 2018. https://www3.weforum.org/docs/WEF_Forum_IncGrwth_2018.pdf

[30] UNDP, Human Development Report 2019. New York, 2019, 366 pages.

[31]UNDP, Human Development Report 2021/2022. New York, 2022, 320 p.

ötən dövrdə ölkənin davamlı inkişafını təmin etmək məqsədilə insan potensialının formalaşdırılması, onun iqtisadiyyatda insan kapitalına çevrilməsinə və ondan səmərəli istifadə əsas prioritet istiqamətlərdən biri hesab edilmiş və bu istiqamətdə təşəbbüslər dövlət tərəfindən dəstəklənmişdir. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş xaricdə təhsil ənənələri Azərbaycan müstəqillik qazandıqdan sonra Prezident İlham Əliyevin təşəbbüsü ilə uğurla davam etdirilmiş, bu dövr ərzində insan kapitalının inkişafı ilə bağlı dövlət strategiyaları və dövlət proqramları reallaşdırılmışdır.[32]

Üçüncü fəslin **“Davamlı inkişaf inklüziv inkişafın əsası kimi”** adlanan sonuncu yarımfəslində xüsusi vurğulanır ki, insan rifahı onun yaşadığı cəmiyyətdə formalaşan mühitlə sıx əlaqəli olduğu halda, cəmiyyətin inkişafı onu əhatə edən iqtisadi, sosial və ətraf mühit imkanlarından asılıdır. Lakin təbii resursların məhdudluğu, dünyada baş verən qloballaşma, əhali artımı, ətraf mühitin çirklənməsi, qlobal istiləşmə, və s. bu kimi problemlər mövcud ekosistemi təhlükə qarşısında qoyaraq, gələcək nəsillərin inkişafını məhdudlaşdırır. Mövcud ekosistemi təhlükə altına qoyan problem və çatışmazlıqların həlli üçün bir sıra elmi yanaşmalar, modellər və konsepsiyalar irəli sürülmüşdür. Bu konsepsiyalardan biri də davamlı inkişaf konsepsiyasıdır.[33]

Azərbaycanın Davamlı inkişaf göstəricisi ilbəil artamaqdadır. Beləki, Azərbaycan BMT-nin “Davamlı inkişaf hesabatı – 2022” sənədində dünyanın 166 ölkəsi arasında “Davamlı inkişaf məqsədləri indeksi” üzrə 50-ci pillədə qərarlaşmışdır. Bu göstəriciyə görə ölkəmiz regional liderlərdəndir və 50-ci yerdə qərarlaşaraq Rusiyadan başqa bütün qonşularını geridə qoymuşdur (Şəkil 5). Hesabatda Rusiya 45-ci, Gürcüstan 51-ci, İran 88-ci, Qazaxıstan 65-ci, Türkiyə 71-ci, Ermənistan 66-ci və Türkmənistan 99-cu mövqedədir.

---

[32] Qubadov M.N. “Heydər Əliyevin inklüziv cəmiyyətin qurulmasında rolu”, DİA-da Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş elmi-praktik konfrans, səh: 42-50, Bakı, 2023-cü il.

[33] Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf Məqsədləri üzrə Milli Məlumatlandırma Portalı, “Dayanıqlı inkişaf konsepsiyasının yaranması və inkişafı” adlı məlumatı, Bakı, 2024-cü il

Ölkəmiz "davamlı inkişaf məqsədləri indeksi"nin mümkün 100 balından 73.5 bal toplamışdır (Şəkil 5). Müqayisə üçün qeyd etmək olar ki, Şərqi Avropa və Mərkəzi Asiya regionunda bu indeks üzrə orta göstərici 70.9-dur. Azərbaycan belə bir uğura uzun illər bir çox sahələrdə həyata keçirdiyi uzaqgörən və ardıcıl siyasət nəticəsində nail olmuşdur.[34]




***Şəkil 5 .** Azərbaycan Respublikası və qonşu ölkələrin Davamlı İnkişaf Məqsədləri İndeksi, 2022-ci il üzrə, Məlumat mənbəyi: BMT, Davamlı İnkişaf Hesabatı 2022.*[35]

Dördüncü fəsil **"Azərbaycan Respublikası inklüziv inkişafının müqayisəli təhlili"** adlanır və üç yarımfəsildən ibarətdir. Bu fəsildə Azərbaycan Respublikası inklüziv inkişaf göstəricilərinin regional, qlobal və beynəlxalq təşkilatlara üzv ölkələrlə müqayisəli təhlili aparılmışdır.

---

[34] Azərbaycan Respublikası Dayanıqlı İnkişaf Üzrə Milli Əlaqələndirmə Şurası, 06.10.2022 http://sdg.azstat.org:8484/az/national-implementation-mechanism/452/milli-elaqelendirme-surasi

[35] United Nations, Sustainable Development Reports 2022, https://www.sdgindex.org/reports/

Dördüncü fəslin **“Regional ölkələr ilə müqayisəli təhlil”** adlanan yarımfəslində Azərbaycan Respublikası inklüziv inkişaf göstəricilərinin regional ölkələrlə müqayisəli təhlilinə yer verilib.




**Şəkil 6.** *Azərbaycan Respublikası və qonşu ölkələrin adambaşına düşən ÜDM (AQP ilə ifadədə) və inklüziv inkişaf indeksi göstəricisi. Məlumat mənbəyi: Dünya Bankı və Dünya İqtisadi Forumunun hesabatı .*

Şəkil 6 – da Azərbaycan Respublikası və qonşu dövlətlərin adambaşına düşən ÜDM-nin həcmi və inklüziv inkişaf indeksi göstəricisi haqqında məlumatlar verilmişdir. Təqdim olunmuş məlumatlar Dünya Bankı və Dünya İqtisadi Forumunun rəsmi sənədlərinə əsaslanır.[36] [37] Həmən şəkildən göründüyü kimi, müqayisə edilən bütün dövlətlər iqtisadi göstəricilərinə görə keçid iqtisadiyyatına malik ölkələr qrupuna aiddir və onların gəlir səviyyələri qlobal müqayisə şəraitində orta göstəricilər zonasındadır.[38] Təqdim olunmuş məlumatlar göstərir ki, adambaşına düşən yüksək

[36] The World Bank, Global Development data.
[37] World Economic Forum “Inclusive Development Report”, Geneva, Switzerland, 2018.
[38] The World Bank, Global Development data. https://data.worldbank.org/indicator/NY.GDP.MKTP.PP.CD?end=2022&locations=AZ&start=1990&view=chart

gəlir göstəricisi davamlı inklüziv cəmiyyətin qurulması üçün vacib amil olsa da, uğurun qazanmasına zəmanət vermir. Müqayisə edilən ölkələr arasında adambaşına ən yüksək gəlir Rusiya Federasiyası və Türkiyə Respublikasında müşahidə olunur. Bu ölkələr adambaşına düşən ÜDM həcminə görə digər müqayisə edilən ölkələrdən təxminən iki dəfə yüksək olmasına baxmayaraq onların inklüziv inkişaf indeksləri müvafiq olaraq 4,2 və 4,26 olmuşdur. Müqayisə edilən ölkələr arasında inklüziv inkişafın ən yaxşı göstəricilərini inklüziv inkişaf indeksi 4,69 olan Azərbaycan Respublikası nümayiş etdirib. Eyni zamanda, ölkəmizdə adambaşına düşən ÜDM-nin həcmi AQP (alıcılıq qabiliyyəti pariteti) nəzərə alınmaqla 17,8 ABŞ dollarıdır. Təqdim olunmuş məlumatlar bir daha nümayiş etdirir ki, iqtisadi imkanlar inklüziv inkişafın təmin edilməsi üçün mühüm əhəmiyyət kəsb etsə də, onlar davamlı inklüziv inkişaf sahəsində nəzərdə tutulan məqsədlərə nail olmağa kifayət etmir.

Dördüncü fəslin **"Dünya ölkələri ilə qlobal miqyaslı təhlil"** adlanan yarımfəslində Azərbaycan Respublikasının inklüziv inkişafın təmin edilməsi sahəsində qazandığı nailiyyətlər "Böyük yeddilik" (G7) qrupuna daxil olan ölkələrlə müqayisə edilmişdir.

Məlumdur ki, inklüziv inkişaf həmçinin sosial proqramlar paketinin reallaşdırılmasını nəzərdə tutur. Sosial siyasətin uğurlu olub olmamasını müəyyən etmək üçün Cini Əmsalından istifadə edilir.[39]

İnklüziv inkişaf nəzəriyyəsini digər nəzəriyyələrdən fərqləndirən əsas xüsusiyyətlərdən biri də, burada gəlirlərin və istehlakın əhali arasında bərabər bölüşdürülməsinin qarşıya hədəf qoyulmasıdır. 7 – də Azərbaycan Respublikası və Böyük yeddilik qrupuna daxil olan ölkələrin adambaşına düşən ÜDM həcmi və gəlirlərin əhali arasında bərabər bölüşdürlüməsi prosesinin monitorinqinin aparılması üçün istifadə edilən Cini indeksi göstəricisi ilə bağlı son vəziyyət təqdim edilmişdir.[40] Verilmiş məlumatlardan aydın görünür ki, ölkəmiz gəlirlərin həcminə görə müqayisə edilən digər ölkələrdən geridə qalsa da, gəlirlərin bölüşdürülməsində

---

[39] Ələkbərov U.K. "Azərbaycan Respublikasının inklüziv inkişaf indeksi ölkənin innovativ inkişafının göstəricisi kimi" adlı məqalə. Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə jurnalı, № 1 (61), s 133-142, 2018-ci il.

[40] World Economic Forum, The Global Competitiveness Report 2018.

kənarlaşma minimum həddədir. Cini indeksi göstəricisinə görə Böyük yeddilik qrupuna daxil olan bütün ölkələri geridə qoyan Azərbaycan Respublikası, davamlı inklüziv cəmiyyətin təmin edilməsi üçün əlverişli şərait yaratmışdır. Qeyd olunan şəkildən aydın olur ki, Azərbaycan Respublikası sosial inkişafın təmin edilməsi sahəsində önəmli uğurlara imza atıb.




**Şəkil 7.** *Azərbaycan Respublikası və "Böyük yeddilik (G7)" ölkələrinin adambaşına düşən ÜDM və Cini indeksi göstəricisi. Məlumat mənbəyi: Dünya İqtisadi Forumu, 2023-cü il.*[41]

Dördüncü fəslin **"Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrlə müqayisəli təhlil"** adlanan yarımfəslində Azərbaycan Respublikası inklüziv inkişaf göstəricilərinin ölkəmizin də üzv olduğu Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına (QDİƏT) daxil olan ölkələrlə müqayisəli təhlili verilmişdir. QDİƏT region ölkələrini bir arada birləşdirən mötəbər təşkilatlardan hesab olunur. Azərbaycan QDİƏT-in təsisçi üzvlərindən biri kimi təşkilat çərçivəsində fəal əməkdaşlıq edir və səmərəliliyinin artırılmasına yönəldilmiş təşəbbüsləri dəstəkləyir.

[41] World Economic Forum "Inclusive Development Report", Geneva, Switzerland, 2018.

| № | Ölkənin adı | İnklüziv inkişaf indeksi | İnklüziv inkişaf indeksinə görə tutduğu yer | Adambaşına düşən ÜDM həcminə görə tutduğu yer | Adambaşına düşən ÜDM həcmi |
|---|---|---|---|---|---|
| 1 | **Azərbaycan** | **4.69** | **1** | **7** | **17.8** |
| 2 | Rumıniya | 4.43 | 2 | 1 | 41.25 |
| 3 | Bolqarıstan | 4.41 | 3 | 3 | 33.84 |
| 4 | Şimali Makedoniya | 4.1 | 4 | 5 | 20.32 |
| 5 | Albaniya | 4.08 | 5 | 6 | 18.6 |
| 6 | Moldova | 4 | 6 | 8 | 15.7 |
| 7 | Yunanıstan | 3.7 | 7 | 2 | 37 |
| 8 | Serbiya | 3.7 | 8 | 4 | 23.9 |
| 9 | Ukrayna | 3.42 | 9 | 9 | 12.67 |

**Cədvəl 1.** Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına üzv olan ölkələrin iqtisadi və inklüziv inkişaf göstəriciləri

Cədvəl 1-də QDİƏT-ə üzv ölkələrin iqtisadi və inklüziv inkişaf göstəricilərinin təhlil edilməsinə imkan yaradan məlumatlar təqdim edilmişdir. Davos İqtisadi Forumunun hesabatına əsasən, Azərbaycan Respublikasında İİİ 4.69-a bərabərdir.[42] Bu göstəriciyə görə bizim dövlət QDİƏT-ə üzv ölkələr arasında birinci yerdə qərarlaşıb (Cədvəl 1).

Cədvəldən göründüyü kimi, qrupda iqtisadi potensialına – adambaşına ümumi daxili məhsulun həcminə görə Rumıniya birinci yerdədir. Lakin bu ölkənin hökuməti tərəfindən mövcud iqtisadi imkanlar uğurlu sosial siyasətin aparılmasına düzgün səfərbər edilməyib. Nəticədə isə inklüziv inkişaf indeksinə görə Rumıniya bu qrupda 2-ci

[42] The Global Competitiveness Report 2018. https://www3.weforum.org/docs/GCR2018/05FullReport/TheGlobalCompetitivenessReport2018.pdf

yerdə qərarlaşıb. Qeyd etmək lazımdır ki, iqtisadi resurslarına görə bu qrupda 8-ci yerdə olan Moldova mövcud və nisbətən məhdud iqtisadi imkanlarını düzgün səfərbər etməklə inklüziv inkişaf əmsalına görə qrupda 6-cı yerdə mövqeyini möhkəmləndirib.

Dünya İqtisadi Forumunun hesabatları əsasında hazırlanmış Cədvəl 1– də Azərbaycan Respublikasına aid məlumatlar xüsusi diqqət çəkir. Bizim ölkə mövcud olan iqtisadi imkanlarından daha böyük səmərə ilə istifadə etmişdir. Adambaşına ÜDM hesablanarkən Azərbaycan Respublikasının iqtisadi potensialı bu qrupa daxil olan digər ölkələrlə müqayisədə heç də yüksək deyil. Bu göstəriciyə görə Azərbaycan Respublikası QDİƏT-ə üzv ölkələr arasında 7-ci yerdə qərarlaşıb. Buna baxmayaraq, inklüziv inkişaf indeksinə görə ölkəmiz bu qrupda birinci yerdədir. Azərbaycanın nisbətən məhdud iqtisadi imkanlarla inklüziv inkişaf sahəsində yüksək nəticə əldə etməsi ölkəmizdə iqtisadi resursların uğurlu sosial siyasətin aparılmasına səfərbər edilməsi ilə əlaqədardır.

Tədqiqatın yekununda əldə olunan nəticələr, təklif və tövsiyələr dissertasiyanın **Nəticə** hissəsində aşağıdakı kimi əks olunmuşdur:

Aparılan tədqiqatlar göstərdi ki, inkişafın qiymətləndirilməsində müxtəlif çoxölçülü göstəricilərdən istifadə olunmaqdadır. Müəyyən bir məqsədlər üçün və konkret spesifik çağırışın qarşılanması üçün onların istifadə edilməsi zəruri olsa da, ümumi və hərtərəfli tərəqqi yalnız inklüziv inkişaf göstəriciləri ilə dəyərləndirilə bilər.

Göstərilmişdir ki, iqtisadi imkanlar davamlı inkişaf və inklüziv cəmiyyətin formalaşması üçün vacib şərt olsa da, həll edici əhəmiyyət daşımır. İqtisadi imkanı (hər nəfərə düşən gəlirin dəyəri) daha məhdud olan Azərbaycan Respublikası maddi baxımdan daha zəngin ölkələri inklüziv inkişaf göstəricilərinə görə üstələyib.

Azərbaycan Respublikasının inklüziv inkişaf sahəsində qazandığı nailiyyətlərin arxasında düşünülmüş və ardıcıl dövlət siyasəti durur. Bu siyasət insan potensialının inkişafını, onun iqtisadiyyatda insan kapitalına transformasiyası üçün şəraitin yaradılmasını nəzərdə tutur. İnsan potensialının formalaşması üçün təhsil, səhiyyə və idman sahələrinin inkişafı mühüm rol oynayır.

Müəyyən edilmişdir ki, Azərbaycan Respublikası inklüziv inkişaf sahəsində qazanılan nailiyyətlərin əldə edilməsində dövlət strukturları

ilə yanaşı, vətəndaş cəmiyyətinin, xüsusi ilə də Heydər Əliyev Fondunun fəaliyyəti olduqca əhəmiyyətlidir. Buraya tədris, səhiyyə və sosial sahələrlə yanaşı iqtisadi fəaliyyətlər də aiddir.

Aparılmış araşdırmalardan müəyyən edildi ki, beynəlxalq təşkilatların dəyərləndirmələrinə görə, müstəqilliyini nisbətən yeni bir zamanda bərpa etmiş Azərbaycan Respublikası inklüziv inkişaf göstəricisinə görə yüz illər tarixi olan bəzi inkişaf etmiş ölkələr səviyyəsindədir, bəzi hallarda isə onları da geridə qoymuşdur.



**Tədqiqatın əsas məzmunu müəllifin çap edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**


1. Qubadov M.N. "Azərbaycan Respublikasının inklüziv inkişafı: müasir vəziyyətlər və prioritetlər", İnsan və Biosfer (MaB – Yunesko) Buraxılış 16, Səh: 291-300, 2021-ci il.
2. Qubadov M.N. "İnklüziv cəmiyyətin formalaşmasında təhsilin rolu", Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi: doktorantların və gənc tədqiqatçıların XXV Respublika elmi konfransı, səh: 273-276, Bakı, 23 Noyabr 2022-ci il.
3. Qubadov M.N. "Azərbaycan Respublikasının davamlı inkişafın planlaşdırılması və idarəedilməsində dəyərləndirmə üsulları", Dövlət İdarəçiliyi: nəzəriyyə və təcrübə jurnalı, №3 (79), səh: 93-102, Bakı, 2022-ci il.
4. Qubadov M.N. "Enerji səmərəliliyinin idarəedilməsi davamlı inkişaf amili kimi", Dövlət İdarəçiliyi: nəzəriyyə və təcrübə jurnalı, № 1 (81), səh: 281-292, Bakı, 2023-cü il.
5. Qubadov M.N. "Qorunan ərazilərin təbii ehtiyatların optimal idarəedilməsi və davamlı inkişafda rolu", İnsan və Biosfer (MaB –Yunesko) Buraxılış 17, Səh: 195-208, Bakı,2022-ci il.
6. Qubadov M.N. "Heydər Əliyevin inklüziv cəmiyyətin qurulmasında rolu", DİA-da Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş elmi-praktik konfrans, səh: 42-50, Bakı, 2023-cü il.
7. Gubadov M.N. "Regional features of sustainable development in the context of global climate change", 7th CEO International Social Science Congress, № 7, Page: 151-154, Uzbekistan, 2023.
8. Gubadov M.N. "The role of education in achieving sustainable development", № 9, Page: 262-266, Tashkent,Uzbekistan, 7-10 November 2023.
9. Губадов М.Н. "Сравнительная оценка влияния факторов различной природы на инклюзивное развитие" журнал «Государственное Управление и Государственная Служба», РГКП «Академия государственного управления при Президенте Республики Казахстан», № 4 (87), Стр 14-19, 2023.

Dissertasiyanın müdafiəsi "27" 06 2024-cü il tarixində saat "13:30"-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində fəaliyyət göstərən BFD 2.30 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1001, Bakı ş., Lermontov küç., 74

Dissertasiya işi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının elmi kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "25" 05 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 24.05.2024
Kağızın formatı: A5
Həcm: 38928
Tiraj: 100